**Reyhan İsgəndər qızı ƏHMƏDOVA Psi.ü.f.d**
Qərbi Kaspi Universiteti
Psixologiya və Sosial iş kafedrasının dosenti,
E-mail: r.akhmadova@wu.edu.az

**Şükriyyə Qaraş qızı QƏNBƏRLİ**
Qərbi Kaspi Universiteti,
Psixologiya və Sosial iş kafedrası, magistrant
E-mail: qeberlisukriyye@gmail.com

# XARİCİ GÖRÜNÜŞ PROBLEMİ PSİXOLOJİ ƏDƏBİYYATDA

**Xülasə**

Gözəlliyə qarşı həssaslığın itirilməsi depressiyanın diaqnostikasında mühüm göstəricilərdən biri kimi qeyd edilir. İnsanların bir-biriləri haqqında ilkin təəssüratlarının formalaşmasında vizual göstəricilərin, xüsusilə də üz cizgilərinin rolu vurğulanır.

Bu kontekstdə “oreol effekti” anlayışı — yəni fiziki cazibədarlığın digər müsbət keyfiyyətlərlə əlaqələndirilməsi sosial idrakda mövcud olan koqnitiv qərəzin nümunəsi kimi təqdim edilir.

Stereotiplərin irqi, cinsi, sosial və yaş göstəricilərinə əsaslanaraq fərdlərin obyektiv dəyərləndirilməsinə mane olduğu göstərilir.

Həmçinin, bədən quruluşu ilə psixoloji tiplər arasında mümkün əlaqələr, eləcə də erkən yaş dövrlərində bədən imicinin formalaşmasının fərdi inkişaf və sosial münasibətlər baxımından əhəmiyyəti elmi tədqiqatlar əsasında izah olunur.

Bu məqalədə görünüşün insan psixikasına və sosial qarşılıqlı təsirlərə təsiri çox şaxəli aspektlərdən təhlil olunur.

**Açar sözlər:** görünüş, gözəllik, halo effekti, irq, stereotip, dəri tipi, saç rəngi, ünsiyyət, bədən quruluşu, yaş.

**UOT:** 159.9
**DOİ:** https://doi.org/ 10.54414/MJZI6955

## Giriş

Gözəllik əsas zövq mənbəyidir. Təsəvvür edin ki, siz gözəlliyə qarşı hissiyyatsız olmusunuz. Böyük ehtimalla, özünüzü fiziki, mənəvi və ya emosional bir halsızlıq içində, sağlam olmayan biri kimi hiss edərdiniz. Fiziki gözəlliyə qarşı reaksiya verməmək, ağır depressiyanın əsas əlamətlərindən biridir. O qədər geniş yayılıb ki, depressiyanın standart müayinə metodlarına insanın öz fiziki cazibədarlığını qavrayışındakı dəyişikliklər barədə sual da əlavə olunub [5, s. 8].

Biz “kitabı üz qabığına görə mühakimə etmə” və “gözəllik gözəl davranışdadır” kimi zərb məsəllərə istinad etsək də, reallıq ondan ibarətdir ki, başqaları barədə mülahizələrimiz çox zaman səthi amillərlə, xüsusilə də onların üz cizgiləri ilə ciddi şəkildə müəyyən olunur.

Yeni tanış olduğumuz şəxslərə dair reaksiyalarımızın səmimi təhlili göstərir ki, tez-tez qarşımıza çıxan ilkin təəssüratlar məsələn, birinin “xoşniyyətli insan” kimi qavranılması və ya əksinə, etimad doğurmayan biri kimi dəyərləndirilməsi məhz bu vizual amillərlə formalaşır. Bəlkə də siz bu nəticəyə necə gəldiyinizi heç düşünməmisiniz. Bu, həmin şəxsin səs tonunda, davranışında, yoxsa üz ifadəsində idi? Ehtimal ki, bu amillərin hər biri müəyyən dərəcədə təsir göstərmiş ola bilər, lakin təkcə üz görünüşü belə bu qənaəti formalaşdırmaq üçün yetərli olurdu [13 ,s. 1, 2].

Digər ayrı-seçkilik formalarında olduğu kimi, görünüşə əsaslanan qərəz də tez-tez yanlış stereotiplərə əsaslanır. Məsələn, kök insanların tənbəl, intizamsız və ya sağlam olmadıqları kimi fərziyyələr buna misaldır. Görünüşlə bağlı ayrı-seçkilik həmçinin fərdləri damğalaya bilər.

Bu kontekstdə narahatlıq doğuran məsələlərdən biri də budur ki, görünüşə əsaslanan ayrı-seçkilik irqi, etnik mənsubiyyət, sosial təbəqə, yaş və cinsiyyətə əsaslanan digər struktur bərabərsizlikləri möhkəmləndirir [11, s. 11, 12].

Fridrix Nitsşedə görünüş barəsində bu fikirləri demişdir: "Əgər bir tarakanı əzsəniz, qəhrəman sayılırsınız. Amma bir kəpənəyi əzsəniz, bir cani kimi damğalanarsınız... Hətta əxlaq normaları belə gözəllik anlayışına tabe olur."

Nitsşenin bu fikri əxlaq və cəmiyyət mühakimələrinin nisbili təbiətinə diqqət çəkir. Məsələn, bir tarakanı əzdikdə cəsarətli, ancaq bir kəpənəyi əzdikdə qəddar kimi qiymətləndiririlik. Halbuki, hər iki orqanizm canlıdır. Buradakı fərq cəmiyyətin gözündə "dəyərli" və "dəyərsiz" hesab edilən varlıqlar arasındakı estetik qavrayışdan qaynaqlanır. Bu nümunə göstərir ki, əməllərimizin yaxşı və ya pis olaraq dəyərləndirilməsi əksər hallarda obyektiv həqiqətlərə deyil, ictimai stereotiplərə və qəbul olunmuş norma və dəyərlərə əsaslanır. Gözəlliyə duyulan heyranlıq hətta əxlaqi mühakimələrimizi belə formalaşdıra bilər.

**Oreol effekti**

"Oreol effekti" termini ilk dəfə 1920-ci ildə Edvard Torndayk tərəfindən bu fenomeni təsvir etmək üçün irəli sürülmüşdür. Anlayış, Orta əsrlər, Renessans və Bizans dövrünə aid dini ikonoqrafiyadan metaforik şəkildə götürülüb. Burada müqəddəs şəxslərin başı üzərində parlaq dairə "oreol" onların mənəvi saflığını və seçilmişliyini simvolizə edir.

Oreol effekti — ilkin təəssüratların formalaşmasında rast gəlinən ümumi bir koqnitiv qərəzdir. Bu fenomen, mühakimə edən şəxslərin bir fərddə müəyyən müsbət (və ya mənfi) xüsusiyyətləri müşahidə etdikdən sonra, həmin şəxsin digər, əlaqəsiz və məlum olmayan xüsusiyyətlərinin də eyni istiqamətdə yəni müsbət və ya mənfi olacağını fərz etməyə meyilli olmaları ilə xarakterizə olunur.

Məsələn, oreol effektinin ən geniş yayılmış nümunələrindən biri, insanların fiziki cəhətdən cəlbedici şəxsləri şəxsiyyət və intellekt baxımından da daha üstün hesab etmələri, halbuki bu sahələrə dair heç bir obyektiv sübutlarının olmamasıdır. Burada fiziki cazibədarlıq sanki həmin şəxs haqqında ümumi təəssüratlara "oreol" kimi təsir göstərir və digər xüsusiyyətlərin də müsbət qiymətləndirilməsinə səbəb olur [10, s. 276].

Oreol effektinə aid bu nümunəni misal göstərmək olar. Hardinq böyük bədən quruluşu ilə elastikliyi, iri, geniş yerləşmiş, parıltılı gözləri, qalın qara saçları və nəzərəçarpacaq qəhvəyi dərisi ona hindli görünüşünə bənzər bir yaraşıq verirdi. O, yerini digər müştəriyə verdiyi zaman göstərdiyi nəzakət bütün insanlara qarşı səmimi dostluq hissindən xəbər verirdi. Onun səsi açıqca rezonanslı, kişiyə məxsus, isti idi. O, çəkməçiyə verdiyi bəxşişlə sadə bir səxavətlilik, məmnunluq bəxş etmə istəyini, fiziki rifahdan və səmimi ürək istiliyindən doğan bir xeyirxahlığı əks etdirirdi. Məhz o anda, Doherti Hardinqi diqqətlə süzərkən, Amerikanın tarixini dəyişdirəcək bir fikir beynində canlandı: Bu adam əla bir Prezident olmazdımı? [6, s. 73].

**Dəri tipinə və saç rənginə görə insanlarda yaranan psixoloji stereotiplər**

Qədim zamanlardan da məlum olduğu kimi insanların dəri rənginə, saç rənginə və s. görə onlara qarşı müxtəlif stereotiplər formalaşmışdır. Məsələn, qara rəngli insanlara pis insan, kölə kimi baxılırdı ki, bu da onların psixologiyasına mənfi təsirlər göstərirdi.

Qırmızı saçlarla bir sıra stereotiplər əlaqələndirilir. Bunların ən çox rast gəlinənləri əsəbi, irland mənşəli, zarafatçı, qəribə və qeyri-adi kimi təsvirlərdir. Lakin bəzi stereotiplər cinsə görə fərqlənir. Məsələn, kişi qırmızı saçlılar tez-tez cəlbedici olmayan, gücsüz, cinsiyyət baxımından passiv, qadına bənzər, utancaq və zəif kimi xarakterizə olunurlar. Qırmızı saçlı kişilərə dair bu təsvirlər populyar mediada da geniş şəkildə öz əksini tapır (məsələn, Ron Uizli – Harri Potter seriyası).

Digər tərəfdən, qırmızı saçlı qadınlar adətən iradəli, emosional olaraq qeyrisabit (tez qəzəblənən) və aqressiv xarakter xüsusiyyətləri ilə təsvir olunurlar [4, s. 4].

1940-cı ildə Kennet Klark mağazadan iki ağ və iki qəhvəyi kukla alır və bu kuklaları afroamerikalı uşaqlara təqdim edərək onlardan hansı kuklanın daha yaxşı və ya hansının pis olduğunu, hansının gözəl, hansının çirkin olduğunu soruşur və qeydlər

aparır. Test nəticəsində, uşaqların təxminən üçdə ikisi ağ kuklanı üstün tutmuş və bəzi uşaqlar öz irqlərini inkar etmişlər. Məsələn, 7 yaşlı Edvard D. adlı bir uşaq ağ kuklanı seçərək demişdir: "Mən qəhvəyiyəm, çünki günəşdə yanmışam, amma mən ağ oğlanam" [12].

**Görünüşün insanları bir-birlərini qavramasında və ünsiyyətdə rolu**

Bizim gözəl insanlardan xoşumuz gəlir. Əlbəttə, gözəlliyə baxışlar subyektivdir. Bununla belə, biz onu şəxsiyyətlərarası münasibətlərin qurulması və inkişafının vacib elementi kimi qəbul edirik. Çoxsaylı tədqiqatlara görə, gözəl xarici görünüş dörd yaşdan başlayaraq həm qızlara, həm də oğlanlara yüksək populyarlıq təmin edir. Xarici gözəllik və attraksiya arasında olan əlaqəni izah edən aşağıdakı fərziyyələr mövcuddur:

1. Gözəllik müsbət möhkəmlənmədir: bizə gözəl olanları görmək xoşdur.

2. Gözəl insanlar daha ünsiyyətcil ola bilirlər, daha çox kommunikasiya vərdişlərinə malik ola bilərlər. Bu da gözəl və çirkin insanların sosiallaşma şəraitinin müxtəlifliyi ilə izah oluna bilər.

3. Gözəl insanların populyarlığı onunla ünsiyyətdə müəyyən mənfəətlərlə bağlı ola bilər. Gözəl insan öz tərəfdaşının fiziki cəzbediciliyini yüksəldə bilər.

4. Oreol effektinin təsiri – "gözəldir, deməli, yaxşıdır"; insanlar gözəlliyi müsbət xarakter xüsusiyyətləri ilə, çirkinliyi isə mənfi xüsusiyyətlərlə assosiasiya etməyə meyillidirlər [3, s. 97].

Ünsiyyət prosesində inandırma zamanı inasanların fiziki görünüşləridə önəm daşıyır. Komminikatorun cazibədarlığı inanmanı sürətləndirir [3, s. 64].

İnsanlar bir-birini qavrayarkən adətən zahiri görkəmin: boy, göz, saç, qaş, bədən və s. kimi atributlarına diqqət yetirirlər. İnsanın fiziki simasının elementləri olduqca çoxdur. Lakin psixoloji tədqiqatlar göstərir ki, insanın insanı tərəfindən qavranılması prosesində onların hamısı eyni dərəcədə rol oynamır.

Bu baxımdan bəzi elementlərin, xüsusilə saç, göz, burun, dodaqlar, və s.-nin əhəmiyyəti daha böyükdür. Onlar insanın insan tərəfindən qavranılmasının istinad elementləri - əlamətləridir. İnsanın insan tərəfindən qavranılmasında həmin elementlərin hamısı iştirak etməsə də, ən azı birinin iştirakı zəruridir.

İnsanların bir-birini qavramasında sifət mühüm yer tutur. Bu, hər şeydən əvvəl, onunla bağlıdır ki, insan sifəti affektiv əhəmiyyətə malikdir. Sifətin ən ifadəli əlamətləri ağızla göz sahəsində (arasında) yerləşir. Bu sahəyə mimika zonası deyilir. İnsanın insan tərəfindən qavranılmasında ekspressiv yükü bu zonalar daşıyır. Belə ki, gülüşün ifadəsində ağız, müxtəlif emosiyaların ifadəsində isə göz sahəsi daha mühüm rol oynayır. Bu baxımdan sifət nəinki qavranılmaq üçün münasibdir, həm də sifətin quruluşu insanın halətlərini əks etdirir və həmişə ünsiyyət prosesdə nəzərə alınır. Hər hansı bir adam başqasının sifətini təsvir edərkən sifətin forması, gözlərin rəngi, burunun böyüklüyü və forması, dodaqlar, alın, qaş, ağız, çənə və s. haqqında məlumat versə də, onları həmişə mənalandırır, qaşın, gözün və dodaqlann təkrarolnumaz cizgiləri arxasında insan psixologiyasının sirlərini axtarır. Kişilərə nisbətən qadınlar bu cəhətdən daha yaxşı nəticə göstərirlər.

Fiziki simanın qavranılmasında müxtəlif yaşlarda müəyyən fərqlər müşahidə olunur. A.A.Bodalev bu baxımdan müəyyən edilmiş qanunauyğunluğu təhlil edərək göstərir ki, yaş artdıqca insanlar qavrayış prosesində başqa insanın fiziki simasına aid əlamətləri daha çox ayrıd edir. 7 – 8 yaşa nisbətən 21 -26 yaşlarında fiziki simanın qavrayışı zamanı təsbit edilən elementlərin faizi, demək olar ki, 22 dəfə artır [2, s. 287, 288].

**Bədən quruluşu və xarakter**

1920-ci ildə E. Kreçmerin "Bədən quruluşu və xarakter" adlı əsəri nəşr edildi. Kreçmer bu kitabda tiplərin ümumi psixoloji xarakteristikasını aşağıdakı kimi qeyd edir.

Piknik (yunancada pyknos – möhkəm deməkdir). Bu tip insanlar ətrafdakı adamlarla tez qaynayıb qarışır, səmimi, qayğıkeş, nikbin, təmkinli və ünsiyyətcildir.

Atletik (yunancada athletes – döyüşçü deməkdir). Bu tip insanlar çalışqan, zirək, fəal, riskə meyl edən və kobuddurlar.

Astenik (yunancada asthania – zəif deməkdir). Bu tip insanlar başqalarına qarşı soyuq və laqeyiddir, çox həssasdır, öz daxili aləminə qapılır, təkliyə meyl edir [1, s.487, 489].

**Gənc qız və gənc oğlanların görünüşə münasibəti**

Martin və Kendi tərəfindən aparılmış tədqiqatlar göstərmişdir ki, gənc qızların fiziki cazibədarlıqla bağlı özünüqavrayışı zamanla azalır və xüsusilə

dördüncü sinifdən on ikinci sinfə qədər olan dövrdə qızlar üçün müsbət özünüqavrayışın inkişaf etdirilməsi olduqca vacibdir. Qardner və digərləri də müəyyən etmişdir ki, qızlar təxminən yeddi yaşlarında daha incə olmağa meyl göstərməyə başlayırlar, oğlanlar isə təxminən doqquz yaşında öz bədən ölçülərinin fərqinə varırlar. Onlar həmçinin bildirirlər ki, yeddi ilə on üç yaş arasında olan qızlar faktiki bədən ölçülərindən təxminən beş faiz daha incə olmaq arzusunda olurlar. Daha da narahatedici hal isə odur ki, Louz və Tiqqeman tərəfindən aparılmış araşdırmalarda arıqlama arzusu təxminən altı yaşlı qızlarda müşahidə olunmuşdur.

Aydındır və heç bir mübahisə doğurmur ki, bədən imici və nəticə etibarilə öz imici çox erkən yaşlarda formalaşmağa başlayır və zaman keçdikcə daha da güclənir [7, s. 45].

**Görünüşə görə ayrı-seçkilik və onun təsirləri**

Şəxsi münasibətlər kontekstində görünüşə əsaslanan ayrı-seçkilik, irqə əsaslanan ayrı-seçkilik kimi, hörmətsizlik olmasa belə, zərərli ola bilər. Bu cür ayrı-seçkilik yığcam şəkildə insanların dostluq və romantik münasibətlərə çıxış imkanlarına ciddi təsir göstərə bilər və nəticədə fayda və yükün ədalətsiz şəkildə bölüşdürülməsinə səbəb ola bilər. Görünüşə görə ayrı-seçkiliyə məruz qalan və bu səbəbdən dost tapa bilməyən şəxslər əhəmiyyətli dərəcədə rifah itkisi, hətta muxtariyyət itkisi ilə qarşılaşa bilərlər.

Bu tip şəxsi münasibətlər bir çox insan üçün yaxşı həyat anlayışının ayrılmaz tərkib hissəsidir. Eyni zamanda bu münasibətlər özünə hörmət, özünə dəyər və özünə inamın formalaşmasında mühüm rol oynaya bilər. Bunlar isə insanın digər həyat planlarını həyata keçirməsi üçün vacib ola bilər.

Şəxsi sahədəki ayrı-seçkilik bəzi xarici görünüş xüsusiyyətlərinə sahib insanlar üçün xüsusilə ciddi təhdid yaradır məsələn, üzü fərqli görünən insanların rifahı üçün, xüsusilə artıq çəkili hesab edilən qadınların inkişafı üçün, və qısa boylu kişilərin həyat keyfiyyəti üçün mənfi nəticələr doğura bilər.

Bu görünüş xüsusiyyətləri, onların mənfi şəkildə qiymətləndirilməsinə yönəlmiş geniş yayılmış normaların insanlar tərəfindən daxili şəkildə mənimsənməsi nəticəsində qismən damğalanır. Əslində, şəxsi sahədə bu cür görünüş xüsusiyyətlərinə malik insanlara qarşı baş verən ayrı-seçkilik, onların mənəvi statuslarının qəbul olunmasını sarsıdan daha geniş bir modelin tərkib hissəsini təşkil edə bilər [9, s. 143].

**Görünüşün insanlar üzərində təsirinə aid tədqiqatlar**

Biz adətən bir insanın üz görünüşünə əsasən onun necə bir şəxsiyyətə sahib olduğu barədə nəticə çıxarırıq və bu ilkin təəssürata əsasən həmin insana müəyyən şəkildə davranırıq. Volfhexel və digərləri bir insanın üz cizgiləri ilə onun şəxsiyyəti haqqında formalaşan qavrayışlar arasında daha geniş əlaqəni müəyyən etməyə çalışmışlar. Bu araşdırmada məlum olmuşdur ki, daha cəlbedici görünən insanlar daha müsbət şəxsiyyət xüsusiyyətlərinə malik kimi qiymətləndirilmiş, qadınlar daha etibarlı, kişilər isə daha emosional sabit kimi dəyərləndirilmişdir.

Digər tədqiqatçılar isə ilkin təəssüratların nə dərəcədə dəqiq olduğunu qiymətləndirmişlər. Onlar iştirakçılara müxtəlif insanların fotolarını göstərmiş və həmin şəxslərin xarakter xüsusiyyətlərini dəyərləndirmələrini istəmişlər. Nəticədə məlum olmuşdur ki, ekstraversiya, emosional sabitlik, açıqlıq və özünəinam kimi xüsusiyyətlər neytral mövqedə çəkilmiş fotolardan belə dəqiq şəkildə müəyyən edilə bilmişdir və bu qiymətləndirmələr pozalı (poz verərək çəkilmiş) fotolarda daha dəqiq olmuşdur [8, s. 87].

Tədqiqatlar göstərmişdir ki, müəyyən üz xüsusiyyətləri və gender stereotipləri insanların şəxsiyyət xüsusiyyətləri barədə qavrayışlarına təsir göstərir. Hak cinsiyyətin bir şəxsin qavranılan mehribanlığına təsir edib-etmədiyini araşdırmaq istəmişdir. O, iştirakçılardan gülümsəyən və gülümsəməyən kişi və qadın üzlərini qiymətləndirməyi xahiş etmişdir. Tədqiqat nəticəsində məlum olmuşdur ki, ümumilikdə gülümsəyən üzlər gülümsəməyənlərə nisbətən daha mehriban kimi qəbul olunur. Xüsusilə, gülümsəyən qadın üzləri daha yüksək dərəcədə mehriban kimi qiymətləndirilmişdir.

Bəzi üz xüsusiyyətləri insanların şəxsiyyət haqqında qavrayışına digərlərindən daha çox təsir edir. Qoldberq və başqaları bu qavrayışlara təsir edən konkret üz xüsusiyyətlərini müəyyən etmək üçün tədqiqat aparmışlar. Onlar üzləri manipulyasiya edən kompüter proqramından istifadə etmiş və iştirakçılardan həm orijinal, həm də redaktə olunmuş fotoları müxtəlif şəxsiyyət xüsusiyyətləri üzrə qiymətləndirmələrini istəmişlər.

Nəticələr göstərmişdir ki, böyük gözlərə malik olan şəxslər daha dostcanlı və qayğıkeş, dürüst, xoşagələn, empatik, uyğunlaşan, populyar və ekstravert kimi qəbul olunurlar. Kiçik gözlər isə daha çox kişilik, dominantlıq və güc təsiri bağışlayır.

Eyni zamanda, Todorov, Baron və Osterhof bəzi üz xüsusiyyətlərinin bir şəxsin etibarlılığına dair qavrayışla necə əlaqəli olduğunu araşdırmışlar. Onlar kaşlar, yanaq sümükləri, çənə və burun kimi üz cizgilərini redaktə edərək iştirakçılardan həmin fotolarda etibarlılıq səviyyəsini qiymətləndirmələrini istəmişlər. Tədqiqat nəticəsində məlum olmuşdur ki, aşağı daxili kaşlar, yastı yanaq sümükləri və nazik çənə daha az etibarlı görünən üz xüsusiyyətləri kimi qəbul edilir.

Sonradan Flovi bəzi üzlərin niyə digərlərinə nisbətən daha çox "cinayətkar" görünməsi sualına cavab olaraq ikidərəcəli üz qiymətləndirmə modelinin bu fenomeni izah edib-etmədiyini araşdırmışdır. İştirakçılardan təqdim edilən şəkillərdəki şəxslərin emosional vəziyyəti, şəxsiyyət xüsusiyyətləri və cinayətkarlıq dərəcəsini qiymətləndirmələri istənilmişdir. Şəkillərdəki şəxslərin üz ifadələri müxtəlif idi. Nəticələr göstərmişdir ki, qəzəbli üzlər ən cinayətkar görünənlər kimi qiymətləndirilmiş, onları neytral, daha sonra isə xoşbəxt üzlər izləmişdir. Neytral üzlər, əgər qəzəbli təsiri bağışlayırdısa, daha az etibarlı kimi qəbul olunurdu. Ümumilikdə, cinayətkar görünüşü yüksək qiymətləndirilən qadın və kişilər həm də daha az etibarlı və daha dominant kimi qəbul olunmuşlar. Bu nəticələr yuxarıda qeyd olunan tədqiqatla birlikdə göstərir ki, aşağı daxili qaşlar, yastı yanaq sümükləri, nazik çənə və kiçik gözlərə malik şəxslər daha qəzəbli, cinayətkar və etibarsız görünüş təəssüratı yaradır [8, s. 88].

**Nəticə**

Görünüşə əsaslanan qavrayış və dəyərləndirmə mexanizmləri həm fərdi psixoloji əsaslara, həm də ictimai münasibətlərə əhəmiyyətli dərəcədə təsir göstərir. Estetik amillərin sosial qərəzləri stereotiplərin geniş şəkildə yayılmasını gücləndirir. Estetik qavrayışlar yalnız fərdi münasibətlərə deyil, eyni zamanda əxlaqi münasibətlərə də təsir edir.

Eyni zamanda fiziki görünüşün kommunikativ təsirləri də güclüdür. Cazibədar şəxslər sosial münasibətlərdə daha yüksək qəbul və dəstək görməklə yanaşı, inandırma gücünə də daha çox malik olurlar. Bu hal, marketinq, siyasət və liderlik sahələrində də özünü göstərir.

Uşaq, yeniyetmə və gənclərdə də bədən imici özünə münasibətin formalaşmasına təsir edir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Bayramov Ə.S. Psixologiya. Dərslik / Əlizadə Ə.Ə.; - Bakı, Çinar çap, 2009. – 620s.

2. Bayramov.Ə.S. Sosial psixologiya dərslik / Əlizadə Ə.Ə.;- Bakı, Qapp – Poliqraf, 2003.- 356s

3. Qədirova R.Q. Ümumi psixologiya. Dərs vəsaiti / Məmmədli.İ.M.; - Bakı: Ecoprint, - 2016. – 152s.

4. Climenhage J.L. Gender difference in prejudice toward redheads: / The degree of doctor of philosopy/ - Canada, 2014. – 70p.

5. Etcoff N. Survival of the Prettiest: "The Science of Beauty" - New York: Anchor books, - 2000. – 325p.

6. Gladwel Malcolm Blink: the power of thinking without thinking - New York: Back bay books, - 2007. - 296

7. Haytko D.L. Body image, confidence and media influence: a study of middle school adolescent // - USA: The Journal of Applied Business Research, - 2013. Volume 29, Number 1.

8. Johnson H. Inferences on Criminality Based on Appearance / Hayden Suter, Hayley R. Westra, Morgan Anderson // Butler Journal of Undergraduate Research, - ABŞ: - 2018. Volume 4,- 99

9. Mason Andrew What's Wrong with Lookism?- United Kingdom: Oxford University press, 2023. 240p.

10. Pohl R.F. Cognitive illusions: Intriguing phenomena in thinking, judgment and memory - New York: first published by Routledge, - 2017. – 503p.

11. Rhode D.L. The Beauty bias: The injustice of appearance in life and law - New York: Oxford University Press, - 2010. – 252p.

12. Spofford Tim What the children told us - New York: Sourcebooks, - 2022. – 368p.

13. Zebrowitz L.A. Reading faces: Window to the soul? - United States of America: Westview Press, - 1997. -271p.

**Ph.D. in Psychology**
**Reyhan Iskander gizi AKHMEDOVA**
Western Caspian University,
Associate Professor of the Department of Psychology and Social Work,
E-mail: r.akhmadova@wu.edu.az

**Shukriyye Garash GANBARLİ**
Western Caspian University,
Master's student of the Department of Psychology and Social Work
E-mail: qeberlisukriyye@gmail.com

## THE PROBLEM OF PHYSİCAL APPEARANCE İN PSYCHOLOGİCAL LİTERATURE

**Summary**

The loss of sensitivity to beauty is noted as one of the important indicators in the diagnosis of depression. The role of visual cues, particularly facial features, in shaping people's first impressions of one another is emphasized.

In this context, the concept of the "halo effect" that is, the association of physical attractiveness with other positive qualities is presented as an example of cognitive bias in social perception.

It is shown that stereotypes based on racial, gender, social, and age characteristics hinder the objective evaluation of individuals. Possible links between body structure and psychological types, as well as the importance of body image formation in early childhood in terms of individual development and social relationships, are explained based on scientific research.

This article analyzes the impact of appearance on human psychology and social interactions from multiple perspectives.

**Keywords:** appearance, beauty, halo effect, race, stereotype, skin type, hair color, communication, body structure, age.

**Рейхан Искендер кызыАХМЕДОВА**
Западно-Каспийский университет,
Доцент кафедры Психологии и Социальной работы,
кандидат философских наук. по психологии.
E-mail: r.akhmadova@wu.edu.az

**Шукриййе Гараш ГАНБЕРЛИ**
Западно-Каспийский университет,
магистрант кафедры Психологии и Социальной работы
E-mail: qeberlisukriyye@gmail.com

## ПРОБЛЕМА ВНЕШНОСТИ В ПСИХОЛОГИЧЕСКОЙ ЛИТЕРАТУРЕ

**Резюме**

Потеря чувствительности к красоте рассматривается как один из важных показателей при диагностике депрессии. Подчеркивается роль визуальных характеристик, особенно черт лица, в формировании первых впечатлений о людях.

В этом контексте понятие «эффект ореола» — то есть ассоциирование физической привлекательности с другими положительными качествами — представляется как пример когнитивной предвзятости, существующей в социальной перцепции.

Отмечается, что стереотипы, основанные на расовых, гендерных, социальных и возрастных признаках, мешают объективной оценке личности.

Также на основе научных исследований объясняется возможная связь между телосложением и психологическими типами, а также значение формирования образа тела в раннем возрасте с точки зрения личностного развития и социальных взаимодействий.

В данной статье внешность рассматривается как фактор, оказывающий многогранное влияние на психику человека и социальные взаимодействия.

**Ключевые слова:** внешность, красота, эффект ореола, раса, стереотип, тип кожи, цвет волос, общение, телосложение, возраст.

**Daxil olub: 05.06.2025**